# Cahana sığmayan dahi



Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi və "Nəsimi ili" ilə bağlı Masallı Regional Mədəniyyət İdarəsi tərəfindən təsdiq olunan plana uyğun olaraq müvafiq rayonlar üzrə tabe müəssisələrdə müxtəlif tədbirlər keçirilib.

Masallı rayon Mərkəzi Kitabxanasında Nəsiminin yubileyi ilə əlaqədar sərgi, "Nəsimi dünya poeziyasının kamil nümayəndəsidir" başlıqlı konfrans, "Dahi Azərbaycan şairi və mütəfəkkiri" başlıqları altında tədbirlər təşkil olunub. 20 saylı Öncəqala kənd kitabxanası və Ə.Məmmədov adına kənd orta məktəbinin təşkilatçılığı ilə "Ədəbiyyat üfüqlərində doğmuş eşq günəşi – İmadəddin Nəsimi" adlı konfrans keçirilib. Məktəbin IV-V sinif şagirdlərinin Nəsimi mövzusunda çəkdikləri rəsmlərdən ibarət sərgiyə baxış olub.

Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən 32 saylı kitabxana filialında Nəsiminin 650 illiyi ilə əlaqədar keçirilən dəyirmi masada şəhər 2 saylı orta məktəbin şagirdlərinin ifasında Nəsiminin qəzəllərinin səsləndirilməsi tədbirə xüsusi rəng qatıb.

Masallı rayon Mədəniyyət Mərkəzində və filiallarında şairin yubileyi ilə əlaqədar Xalq teatrının hazırladığı kompozisiya, dəyirmi masa, bədii qiraət və rəsm müsabiqələri keçirilib.







Rayon Tarix-Diyarşünaslıq Muzeyində Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi ilə bağlı böyük şairin xatirə guşəsi yaradılıb. Guşədə Nəsiminin kitabları, şairin Hələb şəhərindəki məzarının təsvirlərinin fotosurətləri və s. yer alır. Muzeydə Ərkivan qəsəbə Əlvan Bağırov adına 4 saylı tam orta məktəbin müəllim və yuxarı sinif şagirdlərinin iştirakı ilə "Nəsimi yaradıcılığında ana dili" mövzusunda tədbir təşkil olunub. Muzeyin direktoru Əntiqə Tağıyeva və məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Sevinc Mikayılova şairin həyat və yaradıcılığı, ədəbi dilimizin inkişafında rolu və s. haqqında söz açıblar. Şagirdlərin ifasında şairin qəzəllərindən ibarət kompozisiya maraqla qarşılanıb.





Tarix-diyarşünaslıq muzeyində daha bir tədbir Eminli kənd Həbib Sadıqov adına tam orta məktəbin müəllim və 11-ci sinif şagirdlərinin iştirakı ilə gerçəkləşib. "Nəsimi yaradıcılığında ana dili" mövzusunda dərsdə Nəsiminin yaşadığı tarixi dövr və ədəbi-bədii mühit, həyat və yaradıcılığının müxtəlif aspektləri, o cümlədən şairin ana dili yaradıcılığı və s. haqqında şagirdlərə ətraflı məlumat verilib, mövzu ətrafında şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Muzey və Masallı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Muzeylər və Nəsimi irsi" mövzusunda tədbir keçirilib. Çıxışlarda mütəfəkkir şairin həyat və yaradıcılığı, şeirlərinin bədii-fəlsəfi məzmunu barədə söz açılıb. Uşaq-gənclər inkişaf mərkəzində fəaliyyət göstərən dərnəklərin üzvləri ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

Qızılavar kənd Əfqan Mirzəyev adına tam orta məktəbinin 7-ci sinif, Qodman kənd Cəlal Kazımov adına tam orta məktəbinin 6-cı sinif şagirdlərinin iştirakı ilə də Tarix-diyarşünaslıq muzeyində "Nəsimi yaradıcılığında ana dili" mövzusunda tədbirlər təşkil olunub.

***

Regional idarənin əhatə etdiyi Yardımlı rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində "2019-cu il "Nəsimi ili"dir", "Cahana sığmayan Azərbaycan şairi", "İmadəddin Nəsimi 650" başlığı altında tədbirlər keçirilib. Şairin həyat və yaradıcılığı barədə çıxışlar dinlənilib. Sonda tədbir iştirakçıları mövzu üzrə kitab sərgisinə baxıblar.

Rayondakı Uşaq musiqi məktəbində Nəsiminin 650 illik yubileyi ilə əlaqədar təşkil olunan tədbirdə təhsil ocağının direktoru Zeyni Əkbərov şairin yaradıcılığı, onun Azərbaycan xalqının bədii-fəlsəfi fikir tarixində dərin iz qoyması, ana dilində poeziyamızın inkişafında müstəsna rolundan bəhs edib. Məktəbin müəllimi Zakir Fazilov Nəsiminin qəzəlləri üstə muğamlarımızdan parçalar ifa edib.









Yardımlı rayonunun Ostayır kənd orta məktəbi və kənd kitabxana filialının birgə təşkilatçılığı ilə "İmadəddin Nəsimi 650" mövzusunda tədbir keçirilib. Təhsil ocağının müəllimləri və kitabxana filialının müdiri Elza Qurbanova Nəsimi yaradıcılığı barədə şagirdlərə ətraflı məlumat veriblər. Qeyd olunub ki, mütəfəkkir şair Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi olsa da, novatorluğu ilə seçilib, ədəbiyyatımızı dil-üslub və janr baxımından zənginləşdirib. Çıxışlardan sonra tədbir iştirakçıları sərgiyə baxıblar.

MKS-nin 42 saylı Urakəran kənd kitabxanasında və rayon Mədəniyyət Mərkəzinin kənddəki 3 saylı Folklor klubunda da Nəsiminin 650 illiyi ilə əlaqədar tədbir keçirilib.



Tədbir iştirakçıları Nəsiminin əsərlərindən ibarət sərgi ilə tanış olublar.

***

Cəlilabad rayon MKS-də "Həqq mənəm" mövzusunda təşkil olunan tədbirdə rayon İcra Hakimiyyətinin məsul işçisi Varid Əsgərov, Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialının müəllimi Tofiq İsgəndərov, Gənclər və idman idarəsinin rəisi Elçin Hüseynov, rayon Mədəniyyət mərkəzinin direktoru Ramil İbrahimov və digər qonaqlar, tələbə və şagirdlər iştirak ediblər.

Əvvəlcə Nəsiminin həyat və yaradıcılığına həsr olunan slayd nümayiş etdirilib, şairin şeirləri səsləndirilib. Məktəblilərin ifasında "Nəsimi" bədii filmindən səhnəcik təqdim olunub. Daha sonra böyük şairin həyat və yaradıcılığı haqqında çıxışlar dinlənib.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Nəsiminin 650 illik yubileyi münasibətilə dəyirmi masa keçirilib. Şairin zəngin irsi barədə çıxışlar dinlənildikdən sonra tədbir iştirakçıları mərkəzin film otağında "Nəsimi" bədii filmini izləyiblər.

Rayon Uşaq incəsənət məktəbində "İmadəddin Nəsimi" başlığı altında keçirilən tədbirdə görkəmli söz ustadının Azərbaycan poeziyasına verdiyi böyük töhfələrdən danışılıb, qəzəlləri səsləndirilib.

***

Mədəniyyət Nazirliyinin təşkilatçılığı və regional idarələrin iştirakı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Masallıda gerçəkləşən tədbirində "Nəsimi ili" ilə əlaqədar şairin əsərləri və haqqında yazılan kitablardan ibarət sərgi nümayiş olunub.

Masallı "ASAN Xidmət" Mərkəzinin qarşısında qurulan regional mədəniyyət idarələrinin sərgi-çadırları maraqla qarşılanıb. Çadır-ekspozisiyalardakı xalq sənətkarlığı növləri, o cümlədən misgərlik, dulusçuluq, həsirçilik, ağac üzərində bədii oyma, bədii tikmə, toxuculuq nümunələri, suvenirlər, rəsm əsərləri, kəlağayı və xalçalar ölkəmizin bölgələrinin mədəni irs zənginliyini nümayiş etdirib.

Festivalın bədii hissəsində hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Təqdim olunan rəngarəng musiqi nömrələri, o cümlədən Masallının "Halay" folklor kollektivinin rəqs nümunələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Qonaqlara cənub kulinariyasının ləziz təamları da təqdim olunub.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 34-35.